# Türkiyənin Qars şəhərində ulu öndər Heydər Əliyevin xatirəsi yad olundu



**Ulu öndər Heydər Əliyev qəti və aydın şəkildə müəyyənləşdirilmiş həyat prinsiplərinə və amallarına malik şəxsiyyət idi. O, həyatının bütün mərhələlərində ali məqsədlərini - mənsub olduğu xalqa və cəmiyyətə sədaqət, vicdanlı və əzmkar xidmət prinsiplərini rəhbər tutmuş və bu yoldan heç vaxt dönməmişdir. Heydər Əliyev mənəvi keyfiyyətlərinə, biliyinə, möhkəm iradəsinə, idarəçilik və liderlik qabiliyyətinə görə fenomenal şəxsiyyət, xarizmatik lider kimi səciyyələndirilir, işgüzar və mənəvi keyfiyyətlərlə fitri istedadın vəhdətini özündə ehtiva edən fövqəladə cəhətləri - müdrikliyi, aydın zəkası, fenomenal yaddaşı, dözüm və təmkini, diplomatiya məharəti, hədəfləri dəqiq müəyyənləşdirmək və insanlara özünə inam hissini aşılamaq qabiliyyəti Heydər Əliyevin lider portretini dolğunlaşdıran cizgilərdir.**





Bu günlərdə Türkiyənin Qars şəhərində ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə bağlı mərasim keçirilmişdir.

Azərbaycanın Türkiyənin Qars şəhərindəki Baş Konsulluğunun keçirdiyi tədbirdə Qars vilayətinin valisi Türkər Öksüz, Türkiyə Silahlı Qüvvələrinin Qarsdakı ordu birləşmələrinin komandanı, general-mayor Özkür Nuhud, Daxili İşlər Nazirliyi Qars İdarəsinin rəisi Ümid Bitirik, Ədalət və İnkişaf Partiyası Qars bölməsinin sədri Adəm Çalkın, Qarsdakı Sərhəd Qoşunları Komandanı, polkovnik Osman Klıç və digər rəsmi şəxslər, o cümlədən yerli ictimaiyyətin görkəmli simaları, bu ölkədə yaşayan və işləyən azərbaycanlılar iştirak edirdi.

Baş Konsulluğun inzibati binasında ulu öndərlər - Heydər Əliyev və Mustafa Kamal Atatürkün xatirələri bir dəqiqəlik sükutla yad olundu. Həmçinin Azərbaycan və Türkiyənin Dövlət Himnləri səsləndirildi.

Tədbirdə xalqımızın xilaskar oğlu Heydər Əliyevin zəngin və mənalı həyatını əks etdirən film nümayiş etdirildi.

Rəsmi hissədə Azərbaycanın Qarsdakı Baş konsulu Nuru Quliyev və vali Türkər Öksüz çıxış etmiş, ulu öndər Heydər Əliyevin ömrünün təxminən yarım əsrini əhatə edən siyasi fəaliyyətindən söhbət açmışlar. Vurğulanmışdır ki, Heydər Əliyevin həyat və fəaliyyəti xalqa xidmət simvoludur. Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya istiqamətini milli özünüdərkin güclənməsinə imkan verən sürətli inkişaf strategiyası təşkil etmişdir.

Tanrının bəxş etdiyi şəxsiyyətlər xalqların əsrlər boyu cilalanmış dövlətçilik təfəkkürü, siyasi dünyagörüşü, milli dəyərləri əsasında optimal dövlət modeli və siyasi varislik ənənələri yaradırlar. Amerikalılar üçün Corc Vaşinqton, ingilislər üçün Çörçill, fransızlar üçün Şarl de Qoll, almanlar üçün Otto fon Bismark, çinlilər üçün Mao Tszedun, türklər üçün Mustafa Kamal Atatürkdürsə, azərbaycanlılar üçün dünya siyasət arenasında unudulmaz şəxslərdən olan Heydər Əliyevdir!

Baş Konsul Nuru Quliyev sözünə davam edərək bildirdi ki, ulu öndər Heydər Əliyev siyasi hakimiyyətinin ikinci dövründə Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinin inkişafına xüsusi əhəmiyyət vermiş, Azərbaycan və Türkiyənin liderliyi ilə regionda tarixi əhəmiyyət kəsb edən beynəlxalq layihələr həyata keçirilmişdir. Bu işlər bütünlükdə Avrasiya məkanı üçün strateji xarakter daşıyır.

Tədbirdə qeyd olundu ki, ulu öndər Heydər Əliyev hələ Naxçıvan Ali Məclisinin sədri olduğu dövrdə Azərbaycan-Türkiyə münasibətlərinin dinamik inkişafı üçün təqdirəlayiq işlər həyata keçirib.

Hazırda Türkiyənin Şərq vilayətləri ilə Azərbaycanın Naxçıvan bölgəsinin əlaqələri günbəgün inkişaf edir.

Azərbaycanın Türkiyədəki Baş konsulu Tural Həsənov tədbirdə Azərbaycanda diplomatik orqanlarının yaranması və keçdiyi inkişaf yolundan da geniş söhbət açdı. Həmçinin bildirdi ki, Azərbaycan və Türkiyə xalqları azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı olan Heydər Əliyevi hər zaman ehtiramla yad edəcəklər. Azərbaycan-Türkiyə münasibətləri əbədi və dönməzdir.

Mərasimin sonunda ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü və Azərbaycan Respublikasının Diplomatik xidmət orqanlarının 100 illik yubileyi şərəfinə Azərbaycanın Qars şəhərindəki Baş Konsulluğunun həyətində ağacəkmə kampaniyası keçirildi.

**Esmira YAZKAN,**
**"Respublika" qəzetinin**
**Türkiyədəki müxbiri.**